Folklorşünaslıq: problemlər, tədqiqlər

Füzuli BAYAT
Filologiya elmləri doktoru, professor
AMEA Folklor İnstitutunun şöbə müdiri
E-mail: fuzulibayat58@gmail.com.
ORCID ID: 0000-0002-0811-5852
https://doi.org/10.59849/2309-7949.2026.3.50

ETNİK LƏTİFƏLƏR VƏ QRUPLARARASI STEREOTİPLƏRİN FOLKLORİK KONSTRUKSİYASI

Açar sözlər: Etnik yumor, stereotiplər, ironiya, frame (çərçivə) nəzəriyyəsi, sosiokulturoloji təhlil

ЭТНИЧЕСКИЕ АНЕКДОТЫ И ФОЛЬКЛОРНОЕ КОНСТРУИРОВАНИЕ МЕЖГРУППОВЫХ СТЕРЕОТИПОВ

АННОТАЦИЯ

В данной статье образцы этнического юмора рассматриваются с социокультурной, антропологической и теоретической точек зрения, а также анализируются их функции в обществе. Исследование показывает, что анекдоты представляют собой не только простые тексты, вызывающие смех в повседневном общении, но и выступают в качестве особого коммуникативного средства, через которое выражаются социальные отношения, культурные различия и коллективные формы мышления. В этом контексте юмор функционирует как аналитический инструмент, позволяющий выявить противоречия в этнической среде, а также механизмы формирования и закрепления стереотипов.

В статье этнические анекдоты рассматриваются в контексте формирования понятий «мы» и «другой». Подчеркивается, что подобные юмористические формы, с одной стороны, активизируют стереотипы, а с другой – способствуют их смягчению и снижению социальной напряженности. Анализ, основанный на теории фреймов, показывает, что комический эффект возникает в результате столкновения различных культурно обусловленных моделей мышления и поведения. В этом процессе слушатель интерпретирует ситуацию, опираясь на уже существующие представления, и именно этот механизм интерпретации порождает смех.Таким образом, этнические анекдоты не только отражают межкультурные различия, но и способствуют их осмыслению и принятию. Представляя социальную реальность в упрощенной и нередко ироничной форме, они выявляют внутреннюю динамику общества и косвенно способствуют налаживанию коммуникации между различными социальными и этническими группами.

Ключевые слова: Этнический юмор, стереотипы, ирония, теория фреймов, социокультурный анализ.

ETHNIC JOKES AND THE FOLKLORIC CONSTRUCTION OF INTERGROUP STEREOTYPES

ABSTRACT

This article examines examples of ethnic humor from sociocultural, anthropological, and theoretical perspectives, exploring their functions within society. The study demonstrates that jokes are not merely simple texts that generate laughter in everyday communication, but also serve as a distinctive communicative medium through which social relations, cultural differences, and collective modes of thinking are expressed. In this context, humor operates as an analytical tool that reveals contradictions within ethnic environments as well as the mechanisms through which stereotypes are formed and reinforced. The article approaches ethnic jokes within the framework of the construction of “us” and “the Other.” It emphasizes that such forms of humor both activate

stereotypes and, at the same time, contribute to softening them and reducing social tension. An analysis based on frame theory shows that the comic effect emerges from the clash of culturally specific patterns of thought and behavior. In this process, the audience interprets the situation through pre-existing cognitive frameworks, and it is precisely this act of interpretation that generates humor. Thus, ethnic jokes not only express intercultural differences but also facilitate their recognition and understanding. By presenting social reality in a simplified and often ironic form, they reveal underlying social dynamics and indirectly contribute to communication between different groups.

Keywords: Ethnic humor, stereotypes, irony, frame theory, sociocultural analysis.

Giriş. Tematik lətifə janrı baxımından etnik lətifələr xalq yaradıcılığının ən dinamik və çoxşaxəli sahələrindən biri kimi, müxtəlif millətlərin, etnosların və sosial qrupların spesifik xüsusiyyətlərini yumoristik müstəvidə kodlaşdıran mühüm mədəni-folklor hadisəsi kimi çıxış edir. Bu janr yalnız əyləncə funksiyası ilə məhdudlaşmır; o, eyni zamanda kollektiv yaddaşın, sosial təcrübənin və mədəni identiklik modellərinin diskursiv ifadə formasıdır. Etnik lətifələrin struktur əsasını müəyyən etnik qruplar haqqında tarixi zaman ərzində formalaşmış və kütləvi şüurda sabitləşmiş stereotiplər təşkil edir. Bu stereotiplər çərçivəsində davranış modelləri, dil xüsusiyyətləri, məişət praktikaları və mentalitetə xas cizgilər məqsədli şəkildə hiperbolizasiya və ya reduksiya olunaraq təqdim edilir. Nəticədə müxtəlif mədəniyyətlər arasındakı ontoloji fərqlər və dəyər sistemləri arasındakı ziddiyyətlər komik və bəzən absurd situasiyalar vasitəsilə görünən hala gətirilir; eyni zamanda gözlənilməz oxşarlıqlar da bu kontrast fonunda üzə çıxır.

Etnik yumorun mahiyyəti ondan ibarətdir ki, burada gülüş predmeti təsadüfi hadisə deyil, fərqli dünyagörüşlərinin, normativ sistemlərin və interpretativ çərçivələrin qarşılaşmasıdır. Hər bir mədəniyyət öz daxili məntiqi daxilində ardıcıl və "rasional" görünsə də, "digərinin" prizmasından baxıldıqda həmin davranışlar qeyri-adi, paradoksal və ya gülünc təsir bağışlayır. Bu baxımdan etnik lətifələr mədəniyyətlərarası qavrayış fərqlərini üzə çıxaran diskursiv mexanizm kimi çıxış edir. Sözügedən fenomen Henri Bergsonun gülüş nəzəriyyəsində irəli sürdüyü "canlı olanın üzərinə hopmuş mexanikilik" prinsipi ilə səsləşir: fərdlər öz mədəni kodlarının və davranış stereotiplərinin avtomatizmi daxilində hərəkət etdikdə, bu rigidlik komik effekt doğurur.

Bununla yanaşı, etnik lətifələr sosial-kognitiv və kommunikativ çərçivədə də mühüm funksiyalar yerinə yetirir. Onlar fərdlərə müxtəlif mədəni modelləri, alternativ davranış strategiyalarını və fərqli ünsiyyət formalarını təhlükəsiz, yəni yumorla vasitələnmiş diskurs sahəsində müqayisə etmək imkanı yaradır. Bu prosesdə stereotiplər yalnız reproduksiya olunmur, həm də müəyyən mənada sorğulanır və yenidən interpretasiya edilir. Beləliklə, etnik yumor həm sosial sərhədləri müəyyənləşdirən, həm də onları elastikləşdirən ikili funksiyaya malik olur.

Təbii ki, etnik lətifələr əyləndirici folklor nümunələri olmaqdan daha çox, cəmiyyət daxilində gizli qalan sosiopsixoloji münasibətləri, identiklik konstruksiyalarını və "biz-onlar" oppozisiyasını üzə çıxaran analitik vasitə kimi çıxış edir. Bu mətnlər vasitəsilə fərdlər həm öz etnik-mədəni kimliklərini refleksiya edir, həm də "digər" kimi qavranılan mədəniyyətləri yumor prizmasından dərk edərək onları mənalandırmağa çalışırlar. Beləliklə, etnik yumor fərqlilikləri sadəcə qeyd edən deyil, onları estetik və idraki səviyyədə şərh edən, mədəniyyətlərarası dialo-

qu mümkün edən və kollektiv təfəkkürün strukturunu anlamağa imkan verən fundamental diskurs forması kimi dəyərləndirilə bilər.

Tarixi baxımdan etnik lətifələr. Etnik lətifələrin tarixi insanlığı yaşı qədər qədimdir. Müxtəlif sosial və etnik qrupların xüsusiyyətlərini yumor vasitəsilə ifadə etmək və ya stereotipləri gülüş obyektinə çevirmək ənənəsi qədim mədəni praktikalardan biridir. Antropoloji tədqiqatlar göstərir ki, yumor yalnız əyləncə forması deyil, həm də sosial münasibətləri və qruplararası sərhədləri ifadə edən simvolik kommunikasiya vasitəsidir. Bu baxımdan etnik yumor, fərqli qruplar arasında mövcud olan mədəni fərqlərin və stereotiplərin gülüş vasitəsilə artikulyasiyası kimi başa düşülə bilər (Apte, 1985, s. 108-148). Belə yumor formaları çox vaxt "biz" və "onlar" qarşıdurmasının simvolik ifadəsi kimi çıxış edir və qrup kimliyinin formalaşmasında müəyyən rol oynayır.

Etnik stereotiplərin yumor vasitəsilə ifadəsi xüsusilə Qədim Yunan mədəniyyətində nəzərə çarpır. Yunanlar özlərini sivilizasiyanın mərkəzi kimi təsəvvür edir, bu mədəni çevrədən kənarda qalan xalqları isə ümumi şəkildə *barbaroi* ("barbarlar") adlandırırdılar. Bu termin yalnız dil fərqini deyil, eyni zamanda mədəni və sosial geriliyi ifadə edən ideoloji kateqoriyaya çevrilmişdi (Hall, 1989). Qədim yunan ədəbiyyatında, xüsusilə komediya və satira janrlarında qeyri-yunan xalqların dilinin, geyim tərzinin və davranışlarının gülünc şəkildə təsvir edilməsi geniş yayılmışdı. Məsələn, komediya ustası Aristofanın bəzi əsərlərində skiflər və digər əcnəbi personajlar kobud, sadəlövh və ya məhdud düşüncəli obrazlar kimi təqdim edilir. Bu tip təsvirlər yalnız dramatik effekt yaratmaq məqsədi daşımır, həm də yunanların öz mədəni identikliyini "başqaları" ilə müqayisə etməklə qurmasının bir nümunəsi kimi qiymətləndirilə bilər (Davies, 1990, s. 9-16).

Etnik və regional stereotiplərin yumor forması kimi sistemli şəkildə toplanmış ən qədim nümunələrindən biri eramızın IV-V yüzillərinə aid edilən və yunan dilində tərtib edilmiş *Philogelos* ("Gülüşsevər") adlı lətifə toplusudur. Bu əsər tarixdə qorunub qalmış ən qədim zarafat kitabı hesab edilir və müxtəlif sosial tipologiyalara həsr olunmuş yüzlərlə qısa lətifəni ehtiva edir. Kitabda müəyyən şəhərlərin sakinləri, məsələn, Abdera şəhərinin sakinləri olan abderalılar və ya Kima (Kyme) şəhərinin sakinləri tez-tez sadəlövh və ya düşüncəsiz obrazlar kimi təqdim olunur. Bu stereotiplər antik dünyada müəyyən regionların sakinlərinin "axmaq şəhər" motivi ilə əlaqələndirildiyini göstərir və müasir dövrdə müxtəlif xalqlar və bölgələr haqqında dolaşan stereotipik lətifələrin erkən prototiplərindən biri kimi dəyərləndirilə bilər (Berg, 2008).

Zamanla müxtəlif xalqlar və etnik qruplar haqqında formalaşmış stereotiplər folklor və şifahi ədəbiyyat vasitəsilə orta əsrlərdə də yaşamağa davam etmişdir. Yaxın Şərq və Anadolu mədəni mühitində müxtəlif etnik və sosial qruplar arasında qarşılıqlı yumor və ironiyanın izlərinə rast gəlinir. Səlcuqlu və daha sonra Osmanlı dövründə köçəri və oturaq icmalar arasında, eləcə də müxtəlif etnik qrupların məsələn, türk, fars, ərəb və rum icmalarının bir-birinin dil xüsusiyyətləri və davranış stereotipləri haqqında yumoristik rəvayətlər yaratması geniş yayılmışdı.

Zarafatın məzmunu və onun doğurduğu təsir çox vaxt onu söyləyən şəxsin kimliyindən və hansı auditoriyaya ünvanlanmasından asılı olur. Xüsusilə etnik, dini və irqi mövzulara toxunan lətifələr bu baxımdan daha həssas xarakter daşıyır. Belə yumor nümunələri bəzən incə və düşündürücü təsir bağışlasa da, digər hal-

larda insan ləyaqətini zədələyən, təhqiredici və etik baxımdan problemli formaya çevrilə bilir. Bu ikili təbiət təsadüfi deyil; çünki gülüşün psixoloji mexanizmlərindən biri, məsələn, Tomas Hobbsun qeyd etdiyi kimi, insanın özünü başqası ilə müqayisədə üstün hiss etməsi ilə bağlıdır (Hobbes, 1996, s. 43-45). Məhz buna görə etnik zarafatlar tez-tez stereotiplərə əsaslanaraq kobud və alçaldıcı məzmun qazana bilir.

Bu xüsusiyyətlər etnik yumorun struktur və tipologiyasını araşdıran tədqiqatlarda da öz əksini tapır. Araşdırmaçılar etnik anekdotları ümumilikdə iki əsas qrupa ayırırlar: birincisi, müxtəlif etnik qrupların nümayəndələrini qarşılaşdıran lətifələr; ikincisi isə yalnız bir etnik qrupun üzvlərini təsvir edən nümunələr. Hər iki halda süjetin əsasını kollektiv şüurda mövcud olan stereotiplər təşkil edir. Bu stereotiplər həm "özünə dair" təsəvvürləri (avtostereotiplər), həm də "digərləri" haqqında formalaşmış fikirləri (heterostereotiplər) əhatə edir və dil vasitəsilə konkret, bəzən isə karikaturalaşdırılmış şəkildə ifadə olunur (Пасевич, 2020), s. 29).

Etnik yumorun yaranma mənbəyi də məhz bu fərqliliklərin müşahidəsi ilə bağlıdır. İnsanlar özlərinə bənzəməyən həyat tərzi, adət-ənənə və davranış modellərinə malik qrupları diqqətlə izləyir və bu fərqləri çox vaxt zarafat obyektinə çevirirlər. Müxtəlif xalqların bir-biri haqqında yaratdığı lətifələrdə bu meyl aydın görünür: ingilislərin fransızlar, belçikalıların hollandlar, isveçlilərin danimarkalılar və ya çinlilərin yaponlar haqqında söylədikləri zarafatlar mədəni qarşılıqlı münasibətlərin yumor forması kimi çıxış edir. Eyni tendensiya etnik çərçivədən kənarda da müşahidə olunur; məsələn, siyasi rəqiblər və ya idman komandalarının azarkeşləri arasında dolaşan istehzalı zarafatlar da oxşar mexanizmlə yaranır. Bu cür müqayisələr bəzən zərif və incə yumor nümunəsi olsa da, çox vaxt sərt və hətta aqressiv çalarlar daşıya bilir (Gini, 2015, s. 57).

Bütün bu məqamları ümumiləşdirərək demək olar ki, qövmlər, xalqlar və müxtəlif sosial qruplar arasındakı mədəni, sosial, iqtisadi və dini fərqlərə əsaslanan yumor etnik lətifələr kimi xarakterizə olunur. Bu lətifələr yumorun xüsusi bir kateqoriyasını təşkil edir və əsas diqqət müxtəlif xalqların davranış xüsusiyyətlərinə, mədəni kodlarına və qarşılıqlı münasibətlərinə yönəlir. Onlar bir tərəfdən fərqlilikləri qabardır və stereotipləri gücləndirir, digər tərəfdən isə həmin fərqləri yumor vasitəsilə təqdim edərək onları daha anlaşılan və qəbul edilə bilən formaya salır. Məhz bu çoxqatlı funksionallıq etnik lətifələri həm maraqlı tədqiqat obyekti, həm də cəmiyyətin özünü ifadə vasitəsi kimi səciyyələndirir:

İlk növbədə etnik lətifələr çox vaxt müxtəlif sosial və etnik qruplar haqqında formalaşmış stereotiplərə əsaslanır. Bu stereotiplər həmin qrupların xarakter xüsusiyyətləri, gündəlik vərdişləri, danışıq tərzləri, intellektual səviyyələri və cəmiyyətdə tutduqları sosial rollarla əlaqələndirilir. Belə təsəvvürlər həm müsbət, həm də mənfi məzmun daşıya bilər (Apte, 1985, s. 108-112). Məsələn, almanlar haqqında zarafatlarda onların punktuallığı və pedantlığı, yəhudilərlə bağlı zarafatlarda isə biznes sahəsində çevikliklərı vurğulana bilər. Digər hallarda isə müəyyən xalqların mənfi xüsusiyyətləri şişirdilərək komik təsir yaradılır; məsələn, ermənilərin saxtakarlığı və fürsətçiliyi, gürcülərin qabalığı və aksentli danışığı, rusların isə içkiyə meylliliyi kimi stereotiplər yumorun predmetinə çevrilə bilər.

Etnik zarafatların mühüm xüsusiyyətlərindən biri də sosial normaların və tabuların pozulması ilə bağlıdır. Bu tip lətifələrdə çox vaxt cəmiyyət üçün həssas

hesab olunan mövzular, özəlliklə irqi fərqlər, milli xüsusiyyətlər və qarşılıqlı qərəzli münasibətlər yumor vasitəsilə müzakirə olunur. Belə hallarda zarafatlar müəyyən tabuları qırır və bu pozuntu özü komik effektin yaranmasına səbəb olur. Tematik baxımdan etnik lətifələr əsasən mədəni fərqləri ön plana çıxarır (Davies, 1990, s. 6-10). Bu zarafatlarda müxtəlif xalqların dili, dini inancları, adət-ənənələri, gündəlik davranışları və həyat tərzləri müqayisə edilir. Məsələn, müxtəlif millətlər haqqında yaradılan zarafatlarda insanların davranış formaları, gündəlik vərdişləri və bir-birini necə qavraması kimi məsələlər yumor vasitəsilə təqdim olunur.

Etnik lətifələr adətən sadə və aydın quruluşa malik olur. Bu xüsusiyyət onların geniş dinləyici auditoriyası tərəfindən asanlıqla qavranılmasını təmin edir (Apte, 1985, s. 135-138). Belə zarafatlarda qısa, anlaşıqlı və tez başa düşülən yumor elementlərindən istifadə olunur ki, bu da onların xalq arasında sürətlə yayılmasına imkan yaradır. Bununla yanaşı, etnik lətifələrin məqbul hesab olunan müəyyən sərhədləri də mövcuddur. Bu zarafatlar bəzən yalnız müəyyən etnik qrupun mədəni xüsusiyyətləri ilə bağlı zərərsiz və yumşaq istehza xarakteri daşısa da, bəzi hallarda daha sərt və hətta təhqiredici məzmun ala bilər (Morreall, 2009). Belə lətifələrin nə dərəcədə qəbuledilən və ya təhqiredici hesab olunması əsasən onların söyləndiyi sosial və mədəni kontekstdən asılıdır. Müxtəlif ölkələrdə, mədəni mühitlərdə və tarixi dövrlərdə etnik yumorun qavranılması fərqli olmuşdur; bir mühitdə normal və adi hesab edilən zarafat başqa bir mühitdə təhqiredici kimi qəbul edilə bilər.

Etnik lətifələrin formalaşmasında sosial və siyasi kontekst də mühüm rol oynayır. Xüsusilə multietnik və multikultural cəmiyyətlərdə bu cür zarafatlar bəzən millətlərarası ünsiyyətin bir forması kimi çıxış edir. Onlar müəyyən hallarda sosial gərginliyi azaltmağa və fərqliliklərə yumorla yanaşmağa kömək edə bilər. Bununla belə bu zarafatlar mövcud stereotipləri və qərəzli münasibətləri gücləndirmək potensialına da malikdir (Davies, 1990, s. 8). Buna görə də bəzi cəmiyyətlərdə etnik yumor mədəni mübadilənin bir elementi kimi qəbul edildiyi halda, digərlərində sosial narazılıq və münaqişə mənbəyinə çevrilə bilər.

Etnik yumor həm birləşdirici, həm də ayırıcı sosial funksiyalara malikdir. Bir tərəfdən, bu cür zarafatlar müəyyən etnik və ya sosial qrup daxilində "daxili yumor" kimi fəaliyyət göstərərək qrup üzvləri arasında yaxınlıq və mənsubiyyət hissini gücləndirə bilər. Digər tərəfdən isə eyni zarafatlar başqa qrupları hədəf aldıqda sosial məsafəni artıran və stereotipləri möhkəmləndirən vasitəyə çevrilə bilər. Belə hallarda digər millət və ya etnik qrup haqqında zarafatlar onların dominant qrupla müqayisədə "aşağı" və ya "yanlış" xüsusiyyətlərini qabartmaqla sosial maneələri və qərəzli münasibətləri gücləndirə bilər (Davies, 1990, s. 6-10).

Bundan başqa etnik yumor eyni zamanda kimlik ifadəsinin vasitələrindən biri kimi çıxış edir. Müxtəlif etnik qruplar zarafatlar vasitəsilə özlərini başqalarından fərqləndirir, öz mədəni xüsusiyyətlərini və sosial davranışlarını vurğulayırlar. Bu baxımdan lətifələr yalnız başqaları haqqında deyil, həm də qrupun özü haqqında düşüncə və təsəvvürləri əks etdirir. Bəzi hallarda müəyyən xalq haqqında zarafatlarda həmin xalqın özünəxas xüsusiyyətləri, məsələn, ironik düşüncə tərzi və ya gündəlik həyatla bağlı davranış formaları ön plana çıxarılır.

Bununla yanaşı, etnik lətifələrdə "zərərsiz yumor" ilə "təhqiredici və ya aqressiv yumor" arasındakı sərhəd həmişə aydın şəkildə müəyyən edilmir. Bəzi

hallarda gülüş birbaşa etnik qrupun özünə deyil, mövcud stereotiplərin absurdluğuna və ya onların şişirdilmiş təqdimatına yönəlir. Bu halda zarafat daha çox stereotiplərin tənqidi kimi qəbul edilə bilər. Ancaq digər hallarda belə zarafatlar nifrət nitqi və ya diskriminasiya forması kimi də qiymətləndirilə bilər (Kuipers, 2006). Ümumilikdə etnik lətifələr müxtəlif xalqlar və mədəniyyətlər arasındakı real və ya təsəvvür edilən fərqləri əks etdirir. Onlar müəyyən hallarda sosial gərginliyi yumor vasitəsilə yumşalda və qrup kimliyini möhkəmləndirə bilər. Bununla yanaşı, stereotiplərin gücləndirilməsi nəticəsində sosial qütbləşmə və qərəzli münasibətlərin dərinləşməsinə də səbəb ola bilər.

Bu baxımdan etnik lətifələr müəyyən sosial və mədəni çərçivələrin formalaşdırılmasına və ya dəyişdirilməsinə xidmət edə bilər. Lətifələrin təhlili zamanı əsas məqsəd həmin çərçivələrin necə qurulduğunu və onların cəmiyyət daxilində hansı sosial və mədəni təsirlərə malik olduğunu müəyyən etməkdir. Çərçivə nəzəriyyəsi baxımından etnik lətifələrin ilk analitik mərhələsi çərçivənin müəyyən edilməsidir. Etnik zarafatlar adətən müəyyən bir etnik qrupun sosial mövqeyi, davranış xüsusiyyətləri və digər qruplarla münasibətləri haqqında formalaşmış təsəvvürlər üzərində qurulur. Bu çərçivələr çox vaxt stereotiplərə əsaslanır və həmin qrupun "xarakterini" müəyyən edən xüsusiyyətləri vurğulayır (Geeraerts, 2006, s. 373-380).

Çərçivə (frame) nəzəriyyəsi baxımından etnik lətifələrin növbəti mühüm elementi stereotiplərlə əlaqədardır. Adətən bu tip zarafatlar müəyyən dövrdə cəmiyyətdə formalaşmış stereotiplərin üzərində qurulur və onları təkrar edərək möhkəmləndirir. Məsələn, müxtəlif xalqlar haqqında işlədilən "ingilislər çox dəqiqdir", "ermənilər hiyləgərdir", "yəhudilər ticarətdə ustadır" kimi ifadələr kollektiv təsəvvürlərin və sosial stereotiplərin sadələşdirilmiş formalarıdır. Bu cür şablonlar müəyyən cəmiyyətin kollektiv yaddaşı və sosial təcrübəsi ilə əlaqədar olaraq formalaşır və zarafatın qəbul olunduğu kontekst daxilində mənalandırılır (Davies, 1990, s. 20-28).

Digər tərəfdən etnik lətifələr stereotipləri sadəcə təkrarlamaqla kifayətlənmir, eyni zamanda onları komik formada təqdim edərək müəyyən bir çərçivə yaradır. Bu çərçivə vasitəsilə müəyyən etnik qrupun xüsusiyyətləri ya müsbət, ya da mənfi şəkildə vurğulanır və nəticədə həmin qrup haqqında sosial qiymətləndirmə güclənir. Beləliklə, lətifələr bir tərəfdən kollektiv təsəvvürlərin möhkəmlənməsinə xidmət edir, digər tərəfdən isə müəyyən qruplar haqqında sadələşdirilmiş və bəzən də yanlış təsəvvürlərin formalaşmasına səbəb olur. Bu proses nəticəsində stereotiplər sosial münasibətlərdə təkrar istehsal olunur və müəyyən etnik qrupların cəmiyyətdəki mövqeyi ya təsdiqlənir, ya da yenidən şərh edilir.

Məsələyə çərçivə nəzəriyyəsi baxımından yanaşdıqda etnik lətifələrdə mühüm elementlərdən biri də etnik kimliyin təqdim olunmasıdır. Bu zarafatlarda sosial qrupları bir-birindən ayıran mexanizmlər açıq şəkildə görünür. Belə yumor nümunələrində müəyyən etnik qrupun özünü digərlərindən fərqli və ya üstün göstərməsi tez-tez müşahidə olunur. Bu kontekstdə əsas struktur "biz" və "onlar" qarşıdurması üzərində qurulur. Etnik lətifələr bu qarşıdurmanı mədəni xüsusiyyətlər, davranış formaları, həyat tərzi və dəyərlər vasitəsilə ifadə edir. Nəticədə ikili bir model formalaşır: bir tərəfdə öz kimliyini müsbət və üstün kimi təqdim edən qrup,

digər tərəfdə isə gülüş obyektinə çevrilən və mənfi xüsusiyyətlərlə təsvir edilən qrup yer alır (Kuipers, 2006, s. 96-102).

Etnik yumorun fenomenologiyası: Mədəni stereotiplər və kollektiv təfəkkürün inkişafı. Güc münasibətləri etnik lətifələrin təhlilində mühüm yer tutur. Çərçivə nəzəriyyəsinə görə, yumor çox vaxt cəmiyyət daxilində mövcud olan güc balansını əks etdirir. Zarafatlar bir çox hallarda sosial və ya mədəni baxımdan dominant mövqedə olan qruplar tərəfindən yaradılır və yayılır. Bu vəziyyət güclü və zəif qruplar arasındakı fərqlərin daha qabarıq şəkildə təqdim olunmasına səbəb olur. Dominant qruplar haqqında zarafatlar nisbətən yumşaq və özünütənqid xarakteri daşıdığı halda, zəif və ya azlıq qrupları haqqında zarafatlar onları gülünc və ya sosial baxımdan aşağı mövqedə göstərən stereotipləri gücləndirə bilər. Beləliklə, etnik lətifələr bəzən mövcud güc münasibətlərinin qorunmasına və sosial iyerarxiyanın möhkəmlənməsinə xidmət edir (Davies, 1998).

Etnik lətifələrin qavranılması isə hər zaman eyni şəkildə baş vermir. Bu tip zarafatlar bir sosial mühitdə normal və gülməli hesab edildiyi halda, başqa bir mühitdə etiraz və narazılıq doğura bilər. Bu baxımdan etnik yumor müxtəlif qruplar arasında sosial sərhədlərin necə qurulduğunu və işlədiyini göstərən mühüm göstəricilərdən biridir. Müəyyən bir etnik qrupun lətifələrdə təqdim olunma forması həmin qrupun cəmiyyət daxilində necə qəbul edildiyini və sosial baxımdan necə qiymətləndirildiyini əks etdirir. Bəzi hallarda isə belə zarafatlar hədəf qrup tərəfindən təhqiredici kimi qəbul edilə və sosial münaqişəyə səbəb ola bilər. Belə vəziyyətlərdə həmin qruplar zarafatların stereotipik və ədalətsiz xarakter daşıdığını vurğulayaraq onlara qarşı etiraz mövqeyi sərgiləyə bilərlər.

Hər halda etnik lətifələrin əyləncə və gülüş məqsədi daşıdığı ilə cəmiyyətin sosial və mədəni münasibətlər sisteminə təsir göstərən kommunikativ vasitə olduğu da diqqətdən qaçmamalıdır. Bu tip zarafatlar müxtəlif sosial qruplar arasında münasibətlərin formalaşmasına, mövcud stereotiplərin güclənməsinə və sosial iyerarxiyaların qorunmasına təsir edə bilər. Bəzi hallarda bir etnik qrupun digər qrupları gülünc şəkildə təqdim etməsi həmin qrupun cəmiyyət daxilindəki mövqeyini möhkəmləndirir və onun sosial üstünlüyünü dolayı yolla təsdiqləyir. Eyni zamanda belə zarafatlar hədəf qrup üçün sosial təzyiq yarada və onların cəmiyyətdəki mövqeyinin dəyişməsini çətinləşdirə bilər (Davies, 1990, s. 35-42).

Bu baxımdan çərçivə (frame) nəzəriyyəsi etnik lətifələri yalnız komik mətn kimi deyil, həm də sosial və mədəni strukturları əks etdirən kommunikativ model kimi qiymətləndirməyə imkan verir. Etnik yumor vasitəsilə müəyyən qruplar haqqında stereotipik təsəvvürlər təkrar istehsal olunur, qruplar arasındakı güc münasibətləri ifadə edilir və sosial normalar formalaşdırılır. Beləliklə, etnik lətifələr bəzən sosial bərabərsizliklərin və qərəzli münasibətlərin möhkəmlənməsinə də xidmət edə bilər.

Bu kontekstdə etnik lətifələri yalnız gülüş doğuran sadə zarafatlar kimi qiymətləndirmək doğru olmaz. Onlar sosial münasibətlərə, mədəni stereotiplərə və hətta siyasi diskurslara təsir göstərən mühüm kommunikativ vasitə kimi çıxış edir. Bəzi hallarda bu tip yumor müxtəlif qruplar arasında gərginliyi azaltmaq funksiyası daşısa da, digər hallarda etnik qarşıdurma və sosial parçalanma üçün zəmin yarada bilər (Apte, 1985, s. 156-162).

Bu baxımdan çərçivə nəzəriyyəsinin tətbiqi etnik lətifələrin bu funksiyalarını daha aydın şəkildə təhlil etməyə imkan verir. Bu yanaşma zarafatlarda istifadə olunan mədəni kodları, stereotipləri və sosial münasibətləri müəyyən etməyə kömək edir. Məsələn, aşağıdakı lətifədə müxtəlif millətlər haqqında formalaşmış stereotiplərin yumor vasitəsilə necə təqdim edildiyini müşahidə etmək mümkündür:

"İngilis, fransız, rus, çinli və yəhudi restorana gedir. Hər biri çay sifariş edir. Sifariş gətiriləndə hər biri çayın içində milçək olduğunu görür. İngilis çayı ofisiantın üzünə tökür. Fransız çox mədəni şəkildə çayı dəyişməyi xahiş edir. Rus milçəyi çıxarıb çayı içir. Çinli çayı içib milçəyi yeyir. Yəhudi isə çinliyə təklif edir ki, milçəyi ondan satin alsın." (https://kamilinfo.net/xalqlara-aid)

Bu lətifə müxtəlif xalqlar haqqında stereotipik təsəvvürlərin yumoristik şəkildə təqdim olunmasına nümunədir. Burada hər bir personaj müəyyən mədəni və sosial xüsusiyyətlərin simvolu kimi təqdim olunur və onların davranışları həmin stereotiplərə uyğun şəkildə qurulur. Məsələn, ingilisin sərt və prinsipial reaksiyası onun qaydalara ciddi yanaşması ilə əlaqələndirilir; fransızın nəzakətli davranışı incəlik və estetik mədəniyyət stereotipini əks etdirir; rusun praqmatik yanaşması çətinliklərə sadə və praktik münasibət kimi təqdim olunur. Çinlinin milçəyi yeməsi stereotipik şəkildə israf etməmək və fərqli qida mədəniyyəti ilə əlaqələndirilir. Yəhudinin milçəyi satmaq təklifi isə iqtisadi düşüncə və ticarət bacarığı stereotipi ilə bağlı komik effekt yaradır.

Bütün bunlar göstərir ki, lətifənin əsas komik mexanizmi çox vaxt müxtəlif mədəni stereotiplərin eyni situasiya daxilində fərqli reaksiyalarla təqdim olunmasına əsaslanır. Bu tip nümunələrdə yumor, fərqli mədəniyyətlərə məxsus davranış modellərinin qarşılaşdırılması üzərində qurulur və nəticədə gözlənilməz məna toqquşması yaranır. Çərçivə (frame) nəzəriyyəsi baxımından bu, stereotiplərin necə aktivləşdirildiyini, onların kollektiv şüurda necə formalaşıb sabitləşdiyini göstərən tipik hallardan biridir. Yəni dinləyici artıq əvvəlcədən müəyyən bir etnik qrup haqqında formalaşmış təsəvvürlə lətifəyə yanaşır və həmin təsəvvürün pozulması və ya təsdiqlənməsi gülüş effektini yaradır.

Məsələn, çukça ilə rus haqqında olan məşhur lətifədə bir qədər istehzalı, hətta müəyyən qədər sərt qarşılaşdırma vasitəsilə iki fərqli dünya görüşü üz-üzə qoyulur. Lətifədə rus və çukça bir-birini "axmaq" hesab edir və bu qarşılıqlı stereotip süjetin əsasını təşkil edir. Ağ ayı ovu epizodunda çukça ayını qəsdən hirsləndirərək rusun reaksiyasını sınağa çəkir. Rus isə təhlükədən xilas olmaq üçün ayını vurur. Ancaq çukçanın məntiqinə görə, problem bununla həll olunmur, əksinə yeni çətinlik yaranır: "ayıyı evə kim aparacaq?" *(https://kamilinfo.net/xalqlara-aid)* Bu gözlənilməz nəticə iki fərqli "çərçivə"nin toqquşmasını göstərir. Bir tərəfdə həyati təhlükədən qurtulmaq ön plandadırsa, digər tərəfdə gündəlik həyatın praktik yükü və nəticələri daha vacib sayılır. Beləliklə, çukça öz baxış bucağından haqlı görünür və məhz bu uyğunsuz məntiq gülüş doğurur.

Lətifədən də göründüyü kimi komik effekt yalnız söz oyunundan deyil, iki mədəniyyətin reallığı fərqli şəkildə dəyərləndirməsindən yaranır. Burada qarşılıqlı anlaşılmazlıq, fərqli prioritetlər və stereotiplərin sadələşdirilmiş forması yumorun əsas mənbəyinə çevrilir. Eyni zamanda, belə lətifələrdə "axmaqlıq" anlayışı nisbi xarakter daşıyır və hər iki tərəfin baxışına görə dəyişir. Bu isə dinləyicini həm güldürür, həm də düşünməyə vadar edir.

Etnik məzmunlu başqa bir lətifədə isə alman obrazı üzərindən fərqli bir sosial və mədəni stereotip təqdim olunur. Burada almanların özlərini üstün görməsi və digər xalqlara qarşı məsafəli, bəzən də təhqiramiz münasibəti ironik şəkildə qabardılır. İşsiz qalan bir almanın dostlarından dəstək görməməsi, ancaq qısa müddət sonra varlanması hekayənin əsas xəttini təşkil edir:

"Bir almanı işdən qovurlar. Yeni iş tapa bilmir. Dostlarından borc istəsə də, onlar pul verməkdən imtina edir. Bir aydan sonra alman bahalı maşın, ev, hələ üstəlik Malyorkada bağ alır. Dostları təəccüblü halda soruşurlar:

- Hans, bu qədər pulun hardandı?

- Çox sadə. Qəzetdə elan verdim. Mən sadə mərakəşliyəm, vətənimə qayıtmaq istəyirəm. Ancaq yol pulum yoxdu" (https://kamilinfo.net/xalqlara-aid)

Onun "mərakeşli" kimi özünü təqdim edib pul toplaması isə cəmiyyətin gizli münasibətlərini üzə çıxarır. İnsanlar bir fərdi dəstəkləmək istəmədikləri halda, müəyyən bir etnik qrupu "uzaqlaşdırmaq" üçün maddi yardım etməyə hazır olurlar. Bu lətifədə komik effekt yalnız situasiyanın absurdluğundan deyil, həm də cəmiyyətin ikili standartlarının ifşasından yaranır. Burada güc münasibətləri, sosial münasibətlərdəki saxtalıq və stereotiplərin necə manipulyasiya oluna bildiyi açıq şəkildə göstərilir. Almanın vəziyyəti dostluq, etimad və sosial həmrəylik kimi anlayışların nə qədər şərti olduğunu ortaya qoyur.

Ümumilikdə, bu tip etnik lətifələr müxtəlif xalqların bir-biri haqqında formalaşdırdığı təsəvvürləri, stereotipləri və sosial münasibətləri yumor vasitəsilə təqdim edir. Onlar sadəcə güldürmək üçün deyil, həm də mədəni fərqlilikləri, qarşılıqlı anlaşılmazlıqları və bəzən gizli qalan sosial həqiqətləri üzə çıxarmaq üçün mühüm vasitə rolunu oynayır. Bu baxımdan, etnik lətifələr həm folklor nümunəsi, həm də cəmiyyətin özünü dərk etmə forması kimi diqqətəlayiqdir.

Etnik lətifələrin əhəmiyyətli bir hissəsi yumor vasitəsilə uzun müddət ərzində formalaşmış və cəmiyyət tərəfindən tanınan mədəni xüsusiyyətləri, eləcə də müəyyən etnik qruplara aid edilən davranış modellərini istehzalı şəkildə gündəmə gətirir. Bu tip zarafatlar çox vaxt açıq şəkildə təhqiramiz olmaqdan daha çox əyləndirici xarakter daşıyır və əsas məqsədi fərqlilikləri həm ümumiləşdirərərk, həm də şişirdərək gülüş doğurmaqdır. Belə lətifələrdə stereotiplər bir növ "oyun materialı" kimi istifadə olunur və onların toqquşması komik effekt yaradır.

Məsələn, ingilis və yəhudi ilə bağlı olan lətifədə iki fərqli davranış modeli qarşılaşdırılır: *"- İngilislə yəhudinin fərqi nədədir?*

- İnglis vidalaşmadan gedir, yəhudi vidalaşır, ancaq getmir." (https://kamilinfo.net/xalqlara-aid)

Bu nümunədə iki ayrı çərçivə paralel şəkildə təqdim olunur. İngilis obrazı adətən formallıq, qayda-qanunlara riayət və soyuqqanlı davranışla əlaqələndirilir. Onun "vidalaşmadan getməsi" ilk baxışda qəribə görünsə də, bu, əslində həmin stereotip daxilində sadə və emosiyasız davranış kimi təqdim edilir. Digər tərəfdə isə yəhudi obrazı daha çox praqmatik, maraqlarını ön plana çəkən və vəziyyətdən maksimum fayda götürməyə çalışan biri kimi təsvir olunur. Onun vidalaşıb getməməsi isə bu praqmatik yanaşmanın şişirdilmiş və ironik ifadəsidir. Burada gülüş effekti məhz bu iki zidd davranış modelinin qarşılaşdırılmasından yaranır. Hər iki stereotip müəyyən qədər karikaturalaşdırılır və nəticədə sosial normaların nisbi və bəzən də absurd tərəfləri üzə çıxarılır.

Eyni oxşar mexanizm başqa bir lətifədə, gürcü obrazı üzərindən qurulan yumorda da müşahidə olunur: *"Gürcü rus dilində iki sözünü unudur. Dükana girib deyir:*

- Mənə üç çörək verin, biri lazım deyil." (https://kamilinfo.net/xalqlara-aid)

Bu lətifədə gülüşün əsas səbəbi dil bilməməkdən yaranan anlaşılmazlıqdır. Gürcü obrazı rus dilini tam bilmədiyi üçün fikrini birbaşa deyil, dolayısı ilə ifadə etməyə çalışır. O, əslində "iki çörək verin" demək istəyir, amma bunun əvəzinə "üç çörək verin, biri lazım deyil" deyir. Bu cümlə məntiq baxımından səhv olmasa da, gündəlik danışıq üçün qeyri-adi və qəribə səsləndiyi üçün gülməli təsir bağışlayır.

Buradakı komiklik dilin özündən deyil, onun yanlış və qeyri-təbii istifadəsindən yaranır. Dinləyici bu uyğunsuzluğu dərhal hiss edir və məhz bu fərq gülüş doğurur. Eyni zamanda, bu lətifə etnik stereotipə də əsaslanır: müəyyən bir xalq haqqında həm bildiklərimiz, həm onlara qarşı münasibətimiz, həm də onların necə davranacağı ilə bağlı əvvəlcədən formalaşmış təsəvvürlər bu cür yumorun yaranmasına zəmin yaradır (Мукарапова, 2019, s. 91). Bu tip lətifələr eyni zamanda mədəni fərqliliklərin gündəlik ünsiyyətdə necə anlaşılmazlıqlara səbəb ola biləcəyini də göstərir. Dil bilməmək, fərqli düşüncə tərzi və kommunikasiya üsulları insanı istər-istəməz komik vəziyyətə sala bilir. Lakin bu gülüş yalnız fərdi bir hal deyil, daha geniş kontekstdə müxtəlif mədəniyyətlərin qarşılaşması zamanı yaranan situasiyaların ümumiləşdirilmiş formasıdır.

Ümumilikdə, etnik lətifələrdə yumor stereotiplərin qarşılaşdırılması, dil oyunları və davranış fərqlilikləri üzərində qurulur. Bu lətifələr həm güldürür, həm də cəmiyyətin müxtəlif qruplar haqqında formalaşdırdığı təsəvvürləri əks etdirir. Onlar bəzən sadələşdirilmiş və şişirdilmiş olsa da, mədəni müxtəlifliyin və insan davranışlarının rəngarəngliyini anlamaq baxımından maraqlı və düşündürücü nümunələr kimi çıxış edir.

Buna baxmayaraq, bəzi zarafatlar yalnız əyləncə vasitəsi olmaqdan çıxıb düşməncə münasibətlərin ifadəsi və yeni sosial mühitdə güc nümayiş etdirmək vasitəsi kimi istifadə olunur. Tarixi nümunə olaraq, İkinci Dünya Müharibəsi zamanı faşist rejimi Avropa yəhudilərini tamamilə məhv etmək məqsədilə "son həll yolu" planını həyata keçirmişdir. Milyonlarla yəhudi, konsentrasiya düşərgələrinə göndərilərək ya dərhal öldürülmüş, ya da qeyri-insani iş şəraitində çalışdırılmışdır (Hilberg, 1961). Hətta sağ qalanlar belə, düşərgələrdəki amansız dəhşəti və qətiyyən humanitar olmayan şəraiti əks etdirən məlumatlar vermişlər. Gün ərzində 800 kaloridən az qida ilə on iki-on dörd saat işləmək, həyat və ölüm arasında seçilmək, havada yayılan yanmış ət qoxusu və kül buludu kimi təsvirlər həmin dəhşətin reallığını göstərir. Aydındır ki, bu, Dantenin üçüncü cəhənnəm dairəsinin iyirminci əsr versiyası idi (Gini, 2015, s. 60).

Etnik lətifələr Azərbaycan folklorunda da çox işlək və funksionaldır. Azərbaycanda müstəqillikdən sonrakı dövrdə yayılan etnik lətifələrin əsas mövzularından biri Qarabağ münaqişəsi və bölgədə baş verən milli-etnik qarşıdurmalar olmuşdur. Bu tip zarafatlar sovet dövründən miras qalan neqativ tendensiyaların davamıdır. Sovet dövründə milli əsaslı lətifələrdə azərbaycanlı-erməni, azərbaycanlı-rus, azərbaycanlı-gürcü və digər kombinasiyalar mövcud olmuş, bu zarafatlar ermənilərin xarakterik xüsusiyyətlərini həm qorxaqlıq, həm hiyləgərliyi, həm də yalançı səmimiliyi gülüş obyektinə çevirmişdir. Müstəqillik əldə edildikdən sonra

isə ermənilərin ərazi iddiaları, milli düşmənçiliyi, tarixi saxtalaşdırmaları və insanların milli fərqlərinə görə davranışı lətifələrin əsas mövzularını təşkil etmişdir.

Məsələn, bir lətifədə belə deyilir:

"Bələdçi turistlərə Qarabağdakı tarixi abidələri göstərərək belə deyir: – Gördüyünüz kilsə VII əsrə aiddir. Kilsənin üstündə tikilən bu qala divarları isə miladdan əvvəlki erməni abidələri siyahısına daxil ediləcək." (Azərbaycan folkloru antologiyası, Muğan folkloru, 2008, s. 205)

Burada ironik komik effekt, tarixin manipulyasiya olunması ilə yaradılır. Bələdçinin VII əsr ifadəsi faktiki tarixi yalan göstərir, "miladdan əvvəlki erməni abidələri" isə tarixi iddiaların absurdluğunu vurğulayır. Bu lətifə göstərir ki, etnik münaqişələr və tarixi iddialar necə bir-birinə qarışmış və cəmiyyətdə stereotipik düşüncələrlə əks olunmuşdur (Davies, 1990). Oxşar düşməncə münasibətə nümunə olaraq SSRİ dövrünə aid lətifələri göstərmək olar:

"Rus, gürcü, erməni və şəkili təyyarədə gedirlər. Rus "Bundan bizdə çoxdu", deyib əlindəki samaqonu pəncərədən yerə atır. Gürcü də bir şüşə çaxırı yerə atıb eyni sözləri təkrar edir. Əlinə heç nə keçməyən şəkili isə ermənini götürüb yerə atır və deyir: 'Bundan da bizdə çoxdu...'" (https://www.facebook.com/Shekiname/posts/bir)

Bu lətifədə zarafat vasitəsilə milli rəqabət və üstünlük nümayiş etdirilir. Hər bir personaj öz qrupunun "çoxluğu" və üstünlüyünü vurğulayır, digərlərinə nisbətən sosial statusunu komik formada ifadə edir. Zarafat burada həm əyləncəli, həm də sosial dinamikanı əks etdirən vasitə kimi çıxış edir, cəmiyyət daxilində qruplararası rəqabəti yumoristik formada göstərir. Beləliklə, düşməncəsinə olan etnik lətifələr həm sosial stereotiplərin təkrar istehsalına xidmət edir, həm də milli-ətnik qarşıdurmaları və tarixi iddiaları ironik və kritik bir baxışla təqdim edərək gülüş yaradır. Ancaq bu tip yumor həm də nifrət nitqi potensialı daşıyır və cəmiyyətdə qütbləşməni gücləndirə bilər.

Yuxarıdakı lətifədə mədəniyyətlərarası fərqliliklərin və stereotiplərin ironik bir şəkildə gülüş hədəfinə çevrildiyi görülməkdədir. Hər bir personajın öz mədəniyyətinə xas olan davranışını nümayiş etdirməsi, eyni zamanda, onların qarşılıqlı münasibətlərindəki absurdluğu ortaya qoyur. Məsələn rus, samaqonu ataraq, içkinin rus cəmiyyətindəki çoxluğunu nümayiş etdirir. Bu davranış onun sərbəstliyi və özündən əminliyinin simvoludur. Gürcü də bu davranışı davam etdirir, çünki onun mədəniyyətində şərab içmək və şərabı qiymətli görmək vardır. Şərabı atmaq gürcü cəmiyyətindəki özünü ifadə etmə formasıdır. Əsl gülüş aktı şəkili "bunnan da bizdə çoxdu" deyərək ermənini atması azərbaycanlıların onlara qarşı düşmənlik edən bir millətə olan münasibətidir. Lətifənin gülməli tərəfi, hər bir personajın öz mədəniyyəti ilə bağlı stereotipik davranışlarını nümayiş etdirməsi olsa da əsl gülüş hədəfi şəkilinin davranışıdır.

Daha kəskin etnik lətifəyə başqa bir misal da göstərmək mümkündür:

"Bir şəkili o birinə deyir:

- Ə, xəvərin var?

- Noolutdu? -deyə ikinci şəkili təəcüblə soruşur.

- Ə, erməni daşnakları söz çıxardıtdı ki, Şəki də erməni torpağıdır.

İkinci şəkili qaşlarını çatır:

- Ə, taxsır özümüzdədi da. O qədər hər kəlmə başı: "hayındı, hayındı" dediox ki, axırda ermənilər də didi ki, Şəki "hay"ındı. Buna maskaralı bir şeir də dimağım gəlir:

Hayındı, ay hayındı,
Dimə, gözdən yayındı
Söylədi neçə nadan
Nə Qarabağ, Naxçıvan!

Lap Şəki də "hay"ındı." (Azərbaycan folkloru antologiyası, Şəki folkloru, 2002, s. 213)

Burada etnik və tarixi kimliklə bağlı ciddi məsələlər siyasi və mədəni kontekstdə satirik bir şəkildə təqdim edilir. İlk şəkilinin "Şəki də erməni torpağıdır" ifadəsi, ironik bir yanaşma ilə cəmiyyətin bu cür iddialara reaksiyasını əks etdirir. İkinci şəkilinin "hayındı, hayındı" deməsi, dil oyunun təsirli bir vasitə olduğunu göstərməklə etnik kimlik cəmiyyətin düşüncələrinə necə nüfuz etdiyini göstərir. İkinci şəkilinin "taxsır özümüzdədi da" deməsi, cəmiyyətin öz tarixini və mədəniyyətini düzgün təqdim etmədiyi fikrini ortaya qoyur. Bu, kollektiv məsuliyyət əslində xatırlatılmaqla yanaşı bir də ermənilərin xislətini göstərməkdədir. İkinci şəkilinin şeir deməsi vəziyyəti daha da ironikləşdirir. Özəlliklə son misralar "Nə Qarabağ, Naxçıvan! Lap Şəki də "hay"ındı" real problemləri satirik bir tərzdə ortaya qoyur. Bu lətifə cəmiyyətin öz tarixini qavraması və mübahisəli məsələlərə münasibəti haqqında düşünməyə sövq edir.

Qədim dövrlərdən etibarən etnik yönümlü lətifələr xalqların bir-birini bəyənməməsi, digərlərindən üstün olduğunu göstərmək istəyi və sosial rəqabət nəticəsində yaranmışdır. XX əsrdə bu tip lətifələrin sayı xüsusilə iki dünya müharibəsi dövründə artmışdır, çünki müharibələr xalqlar arasında düşmənçilik və qarşılıqlı anlaşılmazlığı daha qabarıq şəkildə ortaya çıxarmışdır. Yeni imperiya quruluşları və iqtisadi bərabərsizlik də etnik yumorun yayılmasına təsir edən önəmli faktorlar olmuşdur. Əzilənlər isə əzənlərdən ağıllı olduqlarını göstərməklə bir növ "intiqam" almış olduqlarını düşünürdülər. Məsələn, çukça və rus qarşılaşdırması bu mexanizmi aydın şəkildə nümayiş etdirir.

Təbii ki, bütün deyilənləri bir yerə gətirdikdə etnik lətifələrin ortaq nəticəsi haqqında təsəvvür əldə etmək mümkündür. Əsas məsələ ondan ibarətdir ki, etnik lətifələr müxtəlif xalqların nümayəndələrinin davranışları, mədəniyyəti, adət-ənənələri, xarakteri və ya aksentləri üzərində qurulmuş stereotipləri istifadə edərək gülüş yaradır. Bununla belə, bu lətifələr ümumilikdə həssas mövzulara aid olduğundan, asanlıqla anlaşılmazlıqlar və hətta təhqirlər doğura bilən yumor kateqoriyasına da daxil ola bilir.

İlk öncə etnik lətifələr çox vaxt müəyyən xalqların davranışları, yaşam tərzi, mədəniyyəti və xarakterik xüsusiyyətləri ilə bağlı stereotiplərə əsaslanır. Məsələn, bir xalqın həmişə gecikməsi və ya əksinə, həmişə punktual olması ilə bağlı zarafatlar buna nümunədir. Bu lətifələrdə xalqın tipik davranışları bəzən absurd həddə qədər qabardılır, bəzi xalqların açıq və qonaqpərvər, digərlərinin isə qapalı və təmkinli olduğu ironiya və yumor vasitəsilə vurğulanır. Etnik lətifələr müxtəlif yumor formalarını ironiya, sarkazm, absurd və qara yumoru əhatə edir və dil maneələri, aksent və ləhcə fərqləri ilə oynamaq çox vaxt onların əsas elementlərindən biri olur. Bununla belə, əksər etnik lətifələr təhqir və alçaldıcı ifadələrdən uzaq durur; məqsəd əsasən gülüş yaratmaqdır və stereotiplər yalnız komik effekt üçün hiperbolizə edilir (Davies, 1990, s. 23-28).

İkinci olaraq etnik lətifələr həmçinin məkan və mədəni kontekstə bağlıdır. Çox vaxt yalnız yerli mədəni reallıqları əks etdirir və başqa bölgələrdə və ya ölkələrdə başa düşülməsi çətin ola bilər. Məsələn, milli adət-ənənələr və ya siyasət ilə

bağlı zarafatlar əsasən həmin ənənələrin paylaşıldığı cəmiyyət daxilində gülüş doğurur. Bu lətifələr fərdi şəxsləri deyil, müəyyən bir etnik qrupun tipik nümayəndələrini təsvir edir; məsələn, biznes qurma, problemləri həll etmə və ya istirahət etmə vərdişləri kimi kollektiv davranışlar üzərində qurulur. Beləliklə, etnik lətifələr xalqların ümumi obrazlarını komik şəkildə təqdim edərək qrup xarakterini ön plana çıxarır (Apte, 1985).

Etnik lətifələr hətta təhqiramiz olmadıqda belə, bəzi hallarda alçaldıcı və ya həssas kimi qəbul edilə bilər. İnsanların mədəni fərqlərinə hörmət və ləyaqətini qorumaq bu tip yumorda vacib aspekt hesab olunur. Bundan əlavə, etnik lətifələr yalnız gülüş üçün deyil, sosial və siyasi konteksti əks etdirən kommunikativ vasitə rolunu da oynayır. Onlar xalqlar arasında münasibətləri, tarixdən qalan stereotipləri, miqrasiyanı və digər aktual məsələləri işıqlandırır. Beləliklə, həm sosial, həm də siyasi reallıqların təhlilinə imkan verir. Bu xüsusiyyətləri ilə etnik lətifələr, cəmiyyətin davranış və dəyərlərini, qruplararası münasibətləri və stereotipik düşüncələri anlamaq üçün əhəmiyyətli bir mənbədir.

Nəticə: Etnik yumorun sosial güzgü və mədəni vasitəçi rolu. Etnik lətifə tədqiqatının nəticələri göstərir ki, etnik lətifələr yalnız situativ gülüş doğuran qısa narrativ strukturlar deyil, eyni zamanda cəmiyyətin çoxqatlı mədəni sistemində müxtəlif etnik qruplara münasibəti, sosial təsnifat mexanizmlərini və dəyərlər iyerarxiyasını kodlaşdıran kompleks semiotik vahidlərdir. Bu mətnlərdə fərqli etnik kimliklərə aid mental, linqvistik və məişət xüsusiyyətlərinin hiperbolizasiya və reduksiya vasitəsilə təqdim olunması, kollektiv yaddaşda uzunmüddətli sosial müşahidələrin və təcrübələrin diskursiv formaya salınmasının nəticəsi kimi çıxış edir. Bu baxımdan etnik yumor həm estetik və əyləncə funksiyası daşıyır, həm də idrakı (epistemoloji) və şərhedici potensiala malik olan mədəni fenomen kimi dəyərləndirilməlidir.

Milli və lokal stereotiplərin qarşılaşdırılması nəticəsində yaranan gülüş bir tərəfdən mədəni fərqliliklərin sərhədlərini daha aydın göstərir, digər tərəfdən isə sosial münasibətlərdə mövcud olan gizli gərginlikləri, anlaşılmazlıqları və hətta tabuları yumşaldır. Etnik yumorun funksional çərçivəsi daha geniş kontekstdə sosial-kognitiv və kommunikativ mexanizmlərlə əlaqələndirilə bilər. Bu tip lətifələr fərdlərə müxtəlif dünyagörüşlərini, alternativ davranış modellərini və fərqli kommunikativ strategiyaları "təhlükəsiz diskurs sahəsi" daxilində müqayisə etmək imkanı yaradır. Milli özünəməxsusluqların qarşılaşdırılması nəticəsində formalaşan komik effekt bir tərəfdən mədəni sərhədlərin və identiklik markerlərinin daha aydın dərk olunmasına xidmət edir, digər tərəfdən isə sosial münasibətlərdə mövcud olan gərginlikləri, toqquşmaları, tabu mövzuları dolayı şəkildə ifadə etməyə və "başqasını" dərk etməyə imkan verir. Bu mənada yumor, sosial sistem daxilində potensial konfliktləri açıq qarşıdurmaya çevirmədən, onları simvolik və diskursiv müstəvidə "neytrallaşdıran" tənzimləyici mexanizm kimi çıxış edir.

Bununla yanaşı, etnik lətifələr refleksiv idrak prosesində mühüm rol oynayır. Bu mətnlər vasitəsilə fərdlər yalnız "digər" mədəniyyətlər haqqında təsəvvür formalaşdırmır, eyni zamanda öz kimliklərini, dəyərlər sistemini və düşüncə modellərini dolayı şəkildə yenidən qiymətləndirir, bir sözlə özlərini dərk edirlər. Beləliklə, yumor burada yalnız kommunikativ vasitə olmaqla yanaşı həm də mədəni özünüdərk və sosial refleksiya alətinə çevrilir.

Nəticə etibarilə, etnik lətifələr mədəni müxtəlifliyin bir növ təsviri olmaqla həm də onun strukturlaşdırılması və şərhi üçün mühüm diskursiv mexanizmdir. Bu lətifələr bir tərəfdən fərqlilikləri işarələyərək sosial sərhədləri müəyyənləşdirir,

digər tərəfdən isə həmin sərhədləri yumor vasitəsilə elastikləşdirərək qarşılıqlı anlaşma və empatiya üçün zəmin yaradır. Bu ikili funksiya; həm diferensiasiya, həm də inteqrasiya etnik yumoru folklor sistemində xüsusi əhəmiyyətə malik edir. Beləliklə, etnik yumor bəşəriyyətin kollektiv yaddaşını, sosial təcrübəsini və kognitiv çevikliyini əks etdirən, eyni zamanda sosial münasibətləri tənzimləyən və mədəni dialoqu mümkün edən fundamental ifadə formalarından biri kimi çıxış edir.

ƏDƏBİYAT

Apte, Mahadev L. *Humor and Laughter: An Anthropological Approach.* Ithaca: Cornell University Press, 1985.

Azərbaycan folkloru antologiyası. VI kitab. *Şəki folkloru.* Bakı: Elm və təhsil, 2002.

Azərbaycan folkloru antologiyası. XVII kitab. *Muğan folkloru.* Bakı: Elm və təhsil, 2008.

Berg, William, Tras. *The Philogelos: The Ancient World's Oldest Joke Book.* New Haven: Yale University Press, 2008.

Davies, Christie. *Ethnic Humor Around the World: A Comparative Analysis.* Bloomington: Indiana University Press, 1990.

Davies, Christie. *Jokes and Their Relation to Society.* Berlin: Mouton de Gruyter, 1998.

Geeraerts, Dirk. *Cognitive Linguistics: Basic Readings.* Berlin: Mouton de Gruyter, 2006.

Gini, Al. "Dirty Jokes, Tasteless Jokes, Ethnic Jokes." *Florida Philosophical Review* XV, no. 1 (Winter 2015): 55–65.

Hall, Edith. *Inventing the Barbarian: Greek Self-Definition through Tragedy.* Oxford: Oxford University Press, 1989.

Hendrickson, Robert. *The Literary Life and Other Curiosities.* New York: Harcourt Brace Jovanovich, 1981.

Hilberg, Raul. *The Destruction of the European Jews.* Chicago: Quadrangle Books, 1961.

Hobbes, Thomas. *Leviathan.* Cambridge: Cambridge University Press, 1996.

Kamilinfo. "Xalqlara aid lətifələr." Giriş tarixi: Aprel 1, 2026. https://kamilinfo.net/xalqlara-aid.

Kuipers, Giselinde. *Good Humor, Bad Taste: A Sociology of the Joke.* Berlin: Mouton de Gruyter, 2006.

Morreall, John. *Comic Relief: A Comprehensive Philosophy of Humor.* Malden, MA: Wiley-Blackwell, 2009.

Shekiname. "Şəki lətifələri haqqında." Facebook, May 20, 2021. https://www.facebook.com/Shekiname/posts/bir.

Бахтин, Михаил. *Творчество Франсуа Рабле и народная культура Средневековья и Ренессанса*. Москва: Художественная литература, 1965.

Мукарапова, Айгуль Канатбековна. "Лингвокультурный анализ анекдота как источника этнических стереотипов в английском, русском и кыргызском языках." *Актуальные проблемы филологии и педагогической лингвистики* 2, № 34 (2019): 89-96.

Пасевич, Заряна Васильевна. "Этнический анекдот и его структурные особенности." *Филологический аспект* 02, № 58 (2020): 25-32.